# Zəngəzur dəhlizi region ölkələrinin iqtisadi yüksəlişinə töhfə verəcək

Azərbaycan otuz ilə yaxın Ermənistanın işğalı altında qalan ərazilərini azad edərək ədalətin bərpasına, haqqın qələbəsinə nail olduqdan sonra da öz mövqeyində qətiyyətlə dayandı.

Hələ 1990-cı illərdə, torpaqlarının iyirmi faizi qəsb ediləndən sonra da, 1994-cü ildə atəşkəs sazişi imzalanmasına baxmayaraq, uzun illər ordusunun mövqeləri və dinc sakinlərinin yaşayış yerləri Ermənistan silahlı qüvvələri tərəfindən intensiz olaraq iriçaplı silahlarla atəşə tutulanda da Azərbaycan münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olmuş, bu istiqamətdə ardıcıl addımlar atmışdı. Ancaq Ermənistanın işğalçı mövqeyindən əl çəkməməsi 2020-ci ildə İkinci Qarabağ müharibəsi ilə nəticələndi və Azərbaycan qələbə qazandı. 2023-cü ildə isə Qarabağda qalaraq təxribatlar, terrorlar törətməkdə davam edən Ermənistan silahlı qüvvələrinin qalıqlarının və separatçıların cinayətkar əməllərinə son qoymaq məqsədilə lokal xarakterli antiterror əməliyyatı keçirən Azərbaycan Ordusu istəyinə nail oldu, ölkəmizin suverenliyini tam təmin etdi.

Qalib Azərbaycan İkinci Qarabağ müharibəsinin başa çatmasından qısa müddət sonra Qarabağda və Şərqi Zəngəzurda böyük işlərə başladı. İşğal müddətində qəsbkarların daşı daş üstə qoymadıqları, xarabalığa çevirdikləri həmin ərazilərimizdə geniş və sürətli tikinti, quruculuq işlərinin həyata keçirilməsinə start verildi.

Cənibi Qafqazın lider dövləti olan Azərbaycan regionun rifahı naminə yenə də məqsədyönlü addımlar atdı. Ermənistanla sülh müqaviləsinin imzalanmasının təşəbbüskarı da dövlətimizin başçısı İlham Əliyev oldu.

Rəsmi Bakı sülhə nail olmaq üçün ardıcıl siyasət aparır. Azərbaycan bütün ikitərəfli və çoxtərəfli beynəlxalq görüşlərdə qətiyyətlə bildirir ki, sülhün bərqərar olmasının, eləcə də regionumuzun inkişaf etməsinin, yeni quruculuq dövrünə qədəm qoymasının zamanıdır.

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli görüş Cənubi Qafqazda uzunmüddətli münaqişənin həllinə yönələn mühüm tarixi hadisə kimi yadda qaldı. Həmin gün Ağ Evdə keçirilən görüşdə ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında 7 bənddən ibarət Birgə Bəyannamə imzalandı.

Azərbaycanın indiyədək nümayiş etdirdiyi mövqeyinə və maraqlarına uyğun olan bu sənədin xüsusi əhəmiyyət kəsb edən müddəalarından biri iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılmasına dair 3-cü müddəadır. Həmin maddədə regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyəti bir daha təsdiq edilir, qeyd olunur ki, bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir.

Birgə Bəyannamənin 4-cü maddəsində deyilir ki, Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir: "Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik".

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan avqustun 8-də Ağ Evdə mətbuata bəyanatla çıxışında da bu vacib məsələyə toxundular. Həmin görüşdə ABŞ Prezidenti Zəngəzur dəhlizinin ("Tramp yolu") açılmasının əhəmiyyətini vurğuladı: "Mənim üçün böyük şərəf doğuran məqam bu bəyanatda TRIPP, yəni "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun öz əksini tapmasıdır. Bu xüsusi tranzit ərazi vasitəsilə Azərbaycan Ermənistanın suverenliyinə qəti şəkildə hörmət çərçivəsində özünün Naxçıvan bölgəsinə tam çıxış əldə edəcək. Yəni bunun nəticəsində hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyan bu ərazidə birgə əməkdaşlıq mümkün olacaq", - Donald Tramp dedi.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə bildirdi ki, Prezident Trampın qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq.

Dövlətimizin başçısı İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində Prezident Trampın şahidliyi ilə Ermənistanın Baş nazirinin şəxsən imzaladığı Birgə Bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəanın olduğunu vurğulayaraq bildirdi ki, istədiyimiz budur ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək: "Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı". Dövlətimizin başçısı bu nəqliyyat marşrutunun daha bir tarixi nailiyyət olacağını bildirdi.

Zəngəzur dəhlizinin ("Tamp yolu") açılması regional iqtisadiyyatda yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Bu yol bir sıra ölkələrin iqtisadi yüksəlişinə təkan verəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 20 avqust (№174).- S.7.